Aqil ABBAS

ALLAHI QATİL EDƏNLƏR

Detektiv roman

(Əvvəli ötən saylarımızda)

Əməliyyat Müvəkkilinin özü kəndli balası olsa da belə şeyləri bilmirdi, təəccüblə başını yellədi və sonra uşağı qaldırıb qoydu atın belinə:

- Yaxşı, getdik sizə. - dedi və radioəlaqə ilə Rəislə əlaqə saxladı; - Rəis, atı tapmışıq. Meşənin ətəyindəki kənddəyik. Maşın göndərin, gedirəm atın sahibigilə.

Uşaq atı bir darvazanın ağzında saxladı:

- Əmi, evimiz budu. - deyib hoppanıb atdan düşdü, darvazanı açıb qışqıra-qışqıra atasını çağırdı: - Ata, ay ata, səni polislər istəyir.

Evdən ortayaşlı bir kişi çıxdı və həyətdə polis işçilərini görəndə duruxdu, gah oğluna, gah polislərə, gah da həyətə doluşan kənd uşaqlarına baxıb, qorxa-qorxa da soruşdu:

- Nə isə olub?

Əməliyyat Müvəkkili ev sahibinin bu qəfil gələn qonaqlardan qorxduğunu görüb onu sakitləşdirdi:

- Qorxmayın, heç nə olmayıb, bir-iki sualımız var.

Ev sahibi onları evə dəvət elədi:

- Qalxın evə, buyurun.

- Sağ olun, elə həyətdə oturarıq.

Ev sahibi qonaqlarla bir-bir görüşdü:

- Xoş gəlmisiz. Xətrinizə dəyməsin. Sizi görəndə bir az qorxdum, dedim görən nə isə olub. - Sonra oğluna üz tutdu, - Qaç anana denən çay hazırlasın. Sən Allah, siz də buyurun, buyurun oturun. - deyə həyətdəki ağacın altına qoyulmuş stola dəvət etdi.

Gələnlər keçib əyləşdilər, polislərdən biri həyətə doluşmuş uşaqları bayıra çıxartdı. Qoçaq Nəbi yüyürə-yüyürə gəlib stolun üstə süfrə saldı.

Əməliyyat Müvəkkili:

- Siz bu gün atınızla harasa getmisinizmi?

Ev sahibi:

- Xeyr. Səhər tezdən uşaq qoyunquzunu örüşə çıxaranda minib gedir, axşam gedib gətirir. Mən atı adətən meşədən odun gətirməyə gedəndə minirəm, ya da yuxarı dağ kəndlərinə xeyir-şərə gedəndə.

- Bu gün harda olmusuz?

Ev sahibi çaşqın-çaşqın polislərə baxdı:

- Bəlkə deyəsiz nə baş verib?

Bu vaxt ev sahibəsi gəlib süfrəyə stəkan-nəlbəki düzdü, mürəbbə qoydu, uşağın əlindəki çayniki alıb çay süzmək istədi, amma Əməliyyat Müvəkkili dedi:

- Sağ olun, bacı, qoyun qalsın. Özümüz süzərik.

Ev sahibəsi bir söz demədən çaynini stolun üstə qoyub getdi.

Amma ev sahibi qoymadı çayı Əməliyyat Müvəkkili süzsün, özü süzdü, qonaqlara mürəbbə də çəkdi.

Əməliyyat Müvəkkili:

- Demədiz harda olmusuz?

- Kənddə yas düşüb. Səhər-səhər ora dəyib sonra getmişəm şəhərə bazarlığa. Bir də xəstəxanada bir qohum yatır, ona dəyib qayıtmışam. İndi də hazırlaşırdım yenidən yasa getməyə, - sonra soruşdu, - Rəis, nə hadisə baş verib, bir deyin görüm məndən nəyə görəsə şübhələnirsiz?

- Xeyr, sadəcə olaraq müəyyən bir məsələni aydınlaşdırmaq istəyirik.

- Bilmək olar, nə hadisə baş verib?

- Adam öldürüblər.

- Mən öldürmüşəm? - deyə ev sahibi yenə qorxa-qorxa soruşdu.

Əməliyyat Müvəkkili onu sakitləşdirdi:

- Sakit olun. Hələ ki heç kim sizdən şübhələnmir. Məsələ ondadır ki, hadisə baş verən yerdə sizin atınızın izləri tapılıb.

Stəkan az qaldı ev sahibinin əlindən düşsün, qənd qaldı boğazında, çeçədi. Xeyli öskürdü, yenidən bir qurtum çay içib birtəhər özünə gəldi:

- Mənə inanın, müəllim adamam. Necə insan olduğumu, hətta qonşu kəndlər də bilir. Soruşa bilərsiz, heç toyuq başı da kəsməmişəm.

- Müəllim, dedim ki, heç kim sizdən şübhələnmir. Amma məsələni aydınlaşdırmaq üçün idarəyə getməliyik. Ziyalı adamsız, bilirsiz ki, bu vacibdi. - Əməliyyat Müvəkkili sonra soruşdu, - Tüfənginiz var?

Ev sahibi əvvəl duruxdu, sonra dedi:

- Bir təklüləm var. Sözün düzü sənədi yoxdu, atamdan qalıb.

- Eybi yox, atanızın sənədi olubsa, qanunsuz sayılmır. Xahiş edirəm, gətirin.

Ev sahibi bir söz demədən qalxdı evə, əlində tüfəng qayıtdı və silahı polislərə təhvil verdi.

***

Kriminalist dindirmə protokolunu tamamladı:

- Müəllim, buyurun, oxuyun və bu yerlərə qol çəkin.

Amma at sahibi oxumadı, göstərilən yerlərə qol çəkdi. Kriminalist protokolu alıb qarşısındakı qovluğa qoydu və dedi:

- İndi gedə bilərsiz, silahınızı isə həftə sonu gəlib apararsız.

- Yəni mən azadam?

- Bəli, bəli! Sizin bu cinayətlə heç bir əlaqəniz yoxdu. Atınızı minən adamı isə mütləq tapacağıq. Siz isə təzə bir şey bilsəniz xahiş edirəm bizə məlumat verin.

At sahibi sağollaşıb otaqdan çıxandan sonra Kriminalist telefonu götürdü:

- Cənab prokuror, at sahibinin bu cinayətlə heç bir əlaqəsi yoxdu. Alibiləri düz çıxdı.

- Bəs at?

- Araşdırırıq. Hər kimdirsə həmin kəndlə bağlı adamdı!

***

Akademikin üz-gözü tez-tez qonağı olduğu bu dar, havasız, cəhənnəm kimi isti qauptvaxta öyrəşsə də, özü bu qədər haqsızlığa öyrəşə bilmirdi, dizlərini qucaqlayıb oturmuşdu, özü-özünə danışırdı:

- Məni sındıra bilməyəcəksiz. Döysəniz də, söysəniz də, həftədə bir dəfə bura salsanız da sındıra bilməyəcəksiz. Siz bu əsgərliyi bizim burnumuzdan gətirsəniz də, mən də yediyiniz-içdiyinizi sizin burnunuzdan gətirəcəm. Məni nə qədər şərləyib həbsxanaya salsanız da xeyri yoxdu. Məni o biri uşaqlar kimi intihara məcbur edə bilməyəcəksiz. Özümü öldürənəcən, sizi ataram. Mənə kərpic kəsdirə bilməyəcəksiz, qoyun otarda, tualet tikdirə bilməyəcəksiz. Mən bura Vətəni qorumağa gəlmişəm, nökərçilik etməyə yox. Nə məni sındıra biləcəksiz, nə də qoymayacam başqalarını sındırasız.

Könlündən siqaret keçdi, qalxıb qapını döydü. Qarovulda dayanmış əsgər:

- Akademik, qapını sındırma.

- Siqaretin var?

- Var, amma verə bilmərəm, qanun yol vermir.

- Sevinirəm ki, qanuna əməl edən əsgərimiz var.

- Yaxşı, zarafat edirəm, ala. - deyə növbətçi əsgər qapının nəfəsliyindən içəri siqaretlə alışqan atdı.

Akademik siqareti yandırıb, acı tüstünü uşaqlıqdan həsrət qaldığı Dəli dağın havası kimi çəkdi ciyərlərinə, alışqanı nəfəslikdən geri qaytardı:

- Sağ ol!

- Bunu da al, - deyə əsgər içəri bir bükülü uzatdı.

- Bu nədi?

- Kotletdi, ağsaqqallar göndərib. Bir az tez ye. Gəlib tutsalar dədəmi belimə şəlləyərlər. Bilirsən də sən qara siyahıdasan. Qara siyahıda olanlara kömək edənləri də o siyahıya salırlar.

- O siyahıya düşməkdən qorxursan, bəs niyə kömək edirsən?

- Bəs kişilik?! Akademik, sənin hesabına yenə bizi minəcəklər.

- Mənim hesabıma niyə?

- Yazdığın şikayətə görə hissəyə yenə komissiya gəlib. Komissiyanı yola salmaq lazımdı, ya yox?! -Əsgərin səsi yavaşıdı, - Ehtiyatlı ol, gələn var.

Gələn Batalyon Komandiri idi:

- Aç qapını.

Əsgər qapını açdı, Batalyon Komandiri keçdi içəri:

- Qalx! Farağat!

Akademik qalxıb farağat dayandı. Batalyon Komandiri əlini qoydu onun çiyninə:

- Hə, Akademik, indi biz sənlə neyləyək?

Akademik həmişəki soyuqqanlıqla:

- Dedim də! Güllələyin, yoldaş komandir!

- Axı sən nə istəyirsən?

- Mən Vətənə qulluq etmək istəyirəm, yoldaş komandir!

- Elə də, qolundan tutan var?!

- Qolumdan yox, ruhumdan tutmusuz, yoldaş komandir!

Batalyon Komandiri əsəbləşdi:

- Bura bax, Akademik, kişi kimi danışaq. Başını sal aşağı, bu yazışmanı saxla, boş-boş danışıb uşaqları yoldan çıxartma. Mən də Polkovniklə danışaram, tikinti batalyonu istəmirsən, səni keçirərik qərargaha, kef edərsən. Amma kişi kimi söz ver ki, bir daha heç yerə heç bir ərizə yazmayacaqsan.

Akademik cavab vermədi, nifrət dolu baxışlarını zillədi Batalyon Komandirinə. Batalyon Komandiri bu nifrət dolu baxışlardan qaçmaq istədi:

- Akademik, biz qorillalar kimi baxış savaşı eləmirik ki, gözlərini mənə zilləmisən. Söz verirsən ki, bir daha heç hara ərizə yazmayacaqsan?

Akademik farağat vəziyyətini pozmadı:

- Yoldaş komandir, siz də söz verirsiz ki, bir də hərbi hissədə qanunları pozmayacaqsız?

Batalyon Komandiri:

- Day özündən küs! - dedi hirslə bayıra çıxdı və çıxanda da qapını necə çırpdısa, qapı az qala çərçivəsindən qopsun.

Batalyon Komandiri gedəndən sonra növbətçi əsgər dedi:

- Akademik, vallah sən qurd ürəyi yemisən.

Akademik:

- Bilirsən dostum, mən doğrudan qurd ürəyi yemişəm. Atam ovçudu. Biz iki qardaşıq. Atam nə qədər qurd vururdusa ürəyini şişə çəkib bizə yedizdirərdi. Anam sayırmış, indiyədək altmış dörd qurd ürəyi yemişik. Böyük qardaşım elə qurda oxşayır. İstəyirsən inan, istəyirsən yox.

Əsgər:

- Mən birinci dəfədi belə şey eşidirəm. Akademik, deyəsən gopa basırsan, axı?

- Sən görmürsən ki, mənim sifətim də qurd sifətinə oxşayır.

- Yaxşı, Akademik, mənim növbəm bitir. Çalış bu gecə yatma.

- Niyə?

- Bir sözdü də, dedim!

Bir azdan növbətçi dəyişdi. Gecə yarısı qapının açarı şaqqıldadı. Akademik yatmamışdı, qalxdı ayağa, içəri üç əsgər girdi...

***

Yenə qovluğu qapadı. Tağım yoldaşlarının dedikləri ilə qovluqda toplanmış sənədlərdəki ifadələrin bu qədər fərqlənməsi, Polkovnikin belə bir dəhşətli faciəyə həddindən artıq soyuqqanlı yanaşması, yuxarıların ondan işi tezliklə bağlayıb geri qayıtmasını tələb etməsi, Qərargah Rəisinin söhbətləri...

... Yox, bu əsgər heç bir səbəb olmadan boşuna belə bir cinayətə əl ata bilməzdi.

Yenidən tağım yoldaşlarını və bütün şahidləri dindirmək qərarına gəldi.

Qərargah Rəisinin dediyi kimi elə bil bütün şahidlər bir-birinin ağzına tüpürmüşdülər.

- Mən postdan qayıdıb silahı təhvil verdim. Akademik isə silah təhvil götürüb posta gedirdi. Birdən bayırda atəş səsləri eşidildi. Dərhal çölə qaçdım. Qapının ağzında Batalyon Komandiri ilə üç əsgər qanın içindəydilər. Akademikin gözləri hədəqəsindən çıxmışdı. Bir də onu gördüm ki, avtomatı sinəsinə dayayıb atdı

- Mən postdan qayıdırdım, Batalyon Komandiri ilə üç əsgər dayanmışdı. Akademik əlində silah çıxdı, gördüm ki, qəflətən onları gülləyə tutdu, sonra da

- Bir də gördüm ki

- Uşaqları öldürəndən sonra özünü vurdu.

O şahidlərə nə qədər məntiqi suallar verib bircə kəlmə artıq söz qoparmaq istəsə də, bu tutuquşular elə əzbərlədiklərini təkrarlayırdılar. Çoxillik təcrübəsindən bilirdi ki, yalnız öyrədilmiş yalançı şahidlər ifadələrini belə əzbərləyirlər.

- Bəs Akademikin döyülməsi, özü də bir neçə dəfə döyülüb, bu haqda nə deyə bilərsiz?

- Nə vaxt döyüblər? Eşitməmişəm.

- Bəs xəstəxanaya niyə düşmüşdü?

- Hə, onu deyirsiz, təlim vaxtı kəndirlə dırmaşanda yıxılmışdı, başı-gözü yaralanmışdı.

- Böyük hərbi hissədi. Düzdü hərdən dava düşür. Amma Akademikin döyüldüyünü eşitməmişəm.

- Vallah, nə bilim, qabağından yeməyən oğlan idi, bəlkə dalaşıb, amma mənim xəbərim yoxdu.

Müstəntiq:

- Hadisədən üç gün əvvəl onu döyüblərmiş, təhqir ediblərmiş, özü də öldürdüyü əsgərlər, bu düzdü?

- Mən postda olmuşam, eşitməmişəm.

- Bu boyda hadisəni eşitməmisən?

- Yoldaş müstəntiq, siz məni istintaq edirsiz? Deyirəm eşitməmişəm də!

- Qulaq as əsgər, indi bu cinayətin üstü açılmasa, cinayətkarlar cəzasını almasa, sabah bu faciə sənin də başına gələ bilər axı.

- Yoldaş müstəntiq, elə ona görə də deyirəm ki, eşitməmişəm də. Əmrimə cəmi üç ay qalıb.

- Elə bu hadisədən əvvəl özünü güllələyən əsgərin də əmrinə otuz bir gün qalmışdı.

Əsgər əlini atıb stolun üstəki maqnitafonu söndürdü:

- İndi nə istəyirsiz?! İstəyirsiz ki, tualetdə məni də özümü asmış halda tapsınlar? Ya da özümü vurum ki, sevdiyim qız başqasına nişanlanıb?!

Müstəntiq:

- Sən gəl həqiqəti de!

- Akademik də həqiqəti deyirdi.

- Deməli, Akademikin silaha əl atmasının səbəbləri vardı?

- Müstəntiqsiz də, araşdırın, tapın.

(Ardı növbəti sayımızda)